# Qəbələ regional "ASAN xidmət" mərkəzində satış-sərgi keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə müharibə iştirakçıları, qazilər və şəhid ailələrinə kömək məqsədilə yaradılmış "YAŞAT" Fondu Qəbələ Rayon İcra Hakimiyyəti və Qəbələ regional "ASAN xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə gənclərin əl işlərindən ibarət satış-sərgi təşkil edib. Tədbirdə "YAŞAT" Fondunun, Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, sahibkarlar, Vətən müharibəsi qaziləri və şəhid valideynləri iştirak ediblər. Sərgidə Qəbələ regional "ASAN xidmət" mərkəzinin könüllüləri və gənc könüllülər tərəfindən hazırlanmış ağac üzərində oyma işləri, sulu və yağlı boya ilə çəkilmiş rəsmlər nümayiş etdirilib. Tədbirdə çıxış edənlər 44 günlük müharibədə qazanılmış böyük qələbədən, şəhid ailələrinə, qazi və iştirakçılara göstərilən dövlət qayğısından və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə yaradılan "Yaşat Fondu"nun gördüyü işlərdən danışmışlar. Sonda satış-sərgiyə baxış keçirilmişdir. Sərginin keçirilməsindən əldə edilən ianələr şəhid ailələri və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsinə yönəldiləcəkdir. Tədbirdə müharibə iştirakçıları, qazilər və şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlar bildirilmişdir.



## Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinin üzvlərinə medallar təqdim edilmişdir



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 24 iyun 2021-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Qəbələ rayonundan olan hərbçilərə və şəhidlərin ailə üzvlərinə medalların təqdim olunması ilə bağlı tədbir keçirilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində keçirilən tədbirdə Qəbələ RİH-nin nümayəndəsi, vətən müharibəsi iştirakçıları və şəhidlərin ailə üzvləri iştirak etmişdir. Vətən müharibəsi zamanı rayonumuzdan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş 6 şəhidin ailə üzvlərinə və 115 vətən müharibəsi iştirakçılarına medallar təqdim olunmuşdur. Müharibə iştirakçıları və şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## 27 sentyabr–Anım Günü ilə əlaqədar Qəbələ rayonunda tədbirlər həyata keçiriləcək

27 sentyabr–Anım Günü ilə əlaqədar Qəbələ rayonunda geniş tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır. Bununla bağlı Şəhidlər Xiyabanı, Vətən Müharibəsi şəhidlərinin dəfn olunduğu məzarlıqlar, şəkil lövhələri və bulaq kompleksləri təmizlənəcək, bərpa ediləcək və ətrafı abadlaşdırılacaqdır. Dövlət qurumlarının rəhbərləri və ictimaiyyət nümayəndələri tərəfindən Vətən Müharibəsi şəhidlərinin ailələri ziyarət ediləcək, Qəbələ şəhərində monitorlarda Vətən Müharibəsi şəhidlərinin şəkillərinin və adlarının 44 gün ərzində əks olunması təşkil ediləcək.

Rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda Vətən Müharibəsi iştirakçılarının, şəhid ailələrinin üzvlərinin iştirakı ilə Anım Gününə həsr olunmuş toplantılar keçiriləcək.

Şəhidlər Xiyabanına, Vətən Müharibəsi şəhidlərinin dəfn olunduğu məzarlıqlara Vətən Müharibəsi iştirakçılarının, ziyalı və ağsaqqalların, idarə, müəssisə və təşkilatların kollektivlərinin, gənclərin, şagirdlərin gün ərzində qrafik əsasında ziyarətləri təşkil olunacaq. Məscidlərdə, Nic qəsəbəsində yerləşən kilsə və məbədlərdə Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq dini mərasimlər keçiriləcək. Qəbələ rayonu ərazisində müəyyən edilmiş yerlərdə şəhidlərin xatirəsinə ağacəkmə (500 ağac) aksiyasının keçirilməsi nəzərdə tutulmuşdur.

Vətən Müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi ilə əlaqədar şəhər, qəsəbə və kəndlərdə gün ərzində Azərbaycan Respublikası Dövlət bayrağının dirəyinin yuxarı hissəsinə qara lentin bərkidilməsi ilə endiriləcək.

27 sentyabr saat 12.00-da ölkə ərazisində Vətən Müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, küçə, prospekt və meydanlarda insanların və nəqliyyat vasitələrinin hərəkətlərinin dayandırılması ilə bağlı zəruri tədbirlərin görülməsi həyata keçiriləcəkdir.

**"Qəbələ"**

## Şuşada Vaqif Poeziya Günləri keçirilmişdir

"Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 30 avqust tarixində Şuşada böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışı zamanı qeyd edib.



Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də Şuşada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. 39 il əvvəl qoyulan bu məqbərə daha sonra erməni vandalizminin qurbanına çevrildi. 44 günlük qələbədən sonra artıq tez bir zamanda Qarabağın, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa abadlaşdırılmağa başlandı. Şuşaya sözün əsl mənasında zəngin bir həyatın verilməsi üçün mühüm addımlar atılır. Bu məqbərə bu gün dövlət başçımızın prinsipiallığı nəticəsində yenidən dirçəldildi. Azərbaycan dövləti, xalqı illər ərzində işğalla barışmadığı kimi bütün tarixi və mədəni abidələri də bərpa edəcək.

Qeyd edək ki, avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər. Prezident İlham Əliyev açılış mərasimində çıxış edib, o çıxışa başlamazdan əvvəl 44 günlük müharibədə həlak olan şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edib. Daha sonra çıxışına başlayan prezident İlham Əliyev çıxışı zamanı M.P.Vaqifin yaradıcılığından, onun fəaliyyətindən söz açıb. Eyni zamanda, Prezident İlham Əliyev Şuşa şəhərinin, Qarabağın tarixi abidələrinin erməni vandalizminə məruz qalmasını da xüsusi qeyd edib.



Artıq günü-gündən abadlaşdırılan Şuşada təmir və bərpa işləri davam edir. Onu da qeyd edək ki, Şuşada abadlaşdırılma işlərinə yanvar ayından etibarən start verilib. M.P.Vaqifin büstü ilə yanaşı Şuşanın dahi şəxsiyyətləri olan Natəvanın, Bülbülün, Üzeyir Hacıbəyovun da büstləri artıq Şuşaya gətirilib və meydana qoyulub. Bu büstlər erməni vandalizminə məruz qalmış və güllələbaran edilərək tanınmaz hala salınmışdı. Biz tarixi ədaləti artıq bərpa etmişik, Heydər Əliyevin və şəhidlərimizin ruhu şaddır. Heç şübhəsiz ki, bu Qələbə Ali Baş Komandanın illər ərzində yürütdüyü çoxşaxəli fəaliyyətin və qəhrəman əsgər, zabitlərimizin canı, qanı bahasına başa gəldi. Düşmən bulaqlarımızı qurutdu, biz artıq bu yerlərə su çəkirik, düşmən yolları dağıtdı, biz ən müasir avadanlıqlarla geniş yollar çəkirik, biz Qarabağa yeni həyat veririk. Görülən işlər sübut edir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar.

**"Qəbələ"**